UOT 94(479.24)

SAMİR İSMAYILOV

Bakı Dövlət Universitetinin
Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müəllimi,
t.ü.f.d., dosent
samir.ismayilov@mail.ru

QƏRBİ AZƏRBAYCANDA PROGİMNAZİYA VƏ GİMNAZİYALAR (XIX ƏSRİN II YARISI-XX ƏSRİN ƏVVƏLLƏRİ)

DOI: https://doi.org/10.36719/2708-065X/110/55-58

Məqalədə çar Rusiyası dövründə Qərbi Azərbaycan torpaqlarında təsis edilmiş dünyəvi məktəblər sırasında xüsusi yer tutan progimnaziya və gimnaziyalardan bəhs olunur. Aparılan araşdırmalar göstərir ki, çar Rusiyasının XIX əsrin 30-cu illərindən məktəb və maarif sisteminin inkişafı istiqamətində həyata keçirdiyi tədbirlər imperiyanın ucqarlarına da təsirsiz qalmadı. Bu islahatlar nəticəsində keçmiş dini təhsil ocaqları tədricən dünyəvi məktəblərlə əvəz olundu. Dünyəvi məktəblərin təsis olunduğu bölgələrdən biri də Qərbi Azərbaycan torpaqları, İrəvan quberniyasının əraziləri idi. Burada islahatlar nəticəsində əvvəlcə qəza məktəbləri, XIX əsrin ortalarından etibarən isə İrəvan quberniyasının qəza şəhərlərində şəhər məktəbləri, progimnaziya və gimnaziyalar təşkil olunmuşdu.

Açar sözlər: Qərbi Azərbaycan, progimnaziya, gimnaziya, İrəvan, Naxçıvan, Aleksandropol, islahat.

Giriş. XIX əsrin 30-cu illərindən etibarən Şimali Azərbaycanın təhsil sistemində irəliyə doğru müsbət addımlar atıldı. Çar Rusiyasının həyata keçirdiyi təhsil sahəsindəki islahatlar köhnə, dini məktəblər şəbəkəsinin yenilənməsi, dünyəvi məktəblər şəbəkəsi ilə əvəz olunması üçün münbit şəriat yaratdı. Belə dünyəvi məktəblər içərisində XIX əsrin 60-cı illərindən etibarən təsis edilmiş progimnaziya və gimnaziyalar da var idi. Bu tipli təhsil müəssisələrinin bir qismi də Qərbi Azərbaycan kimi tanıdığımız hazırkı Ermənistan ərazilərində açılmışdı. Bununla bağlı olaraq çar hökuməti tərəfindən 1864-cü il noyabrın 19-da təsdiq edilmiş "Gimnaziya və progimnaziyaların əsasnaməsi" və Zaqafqaziya məktəblərinin 1867-ci il nizamnaməsi qəbul olundu. Bu tipli məktəblər XIX əsrin sonlarından daha da təkmilləşir, dövrün tələblərinə uyğun olan müəllimlər seminariyası və realnı məktəblərə çevrilirdi. Bütün bunlar məqalədə dövrün rusdilli mənbələri əsasında araşdırılıb təhlil edilmişdir.

İrəvan progimnaziyası. Aparılan araşdırmalar göstərir ki, İrəvan qəza məktəbi də 1868-ci ildə yenidən qurulduqdan sonra progimnaziyaya çevrildi və 1869-cu ildə açıldı. Onun nəzdində 20 nəfərlik pansionat var idi [3, buraxılış 1, şöbə 1, s.46]. Orada tərbiyəçi M.X.Bexterov, onun köməkçisi P.K. Georgizon, həkim isə L.Daniyalbəyov idi [4, şöbə 3, s.79].

"Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu"nun birinci buraxılışında Zelinskinin verdiyi məlumatlardan aydın olur ki, progimnaziya icarə əsasında fəaliyyət göstərir və kirayə üçün 1420 manat ödəyirdi. Progimnaziyada dərsliklərin çeşidi çox idi. Onun fundamental kitabxanasında 2.248 cilddə 953 adda kitab var idi. Bunlardan 69 cildi ilahiyyat üzrə, 217 cildi pedaqoji sahə üzrə, 360 cildi ədəbiyyat üzrə, 298 cildi tarix sahəsi üzrə, 114 cildi coğrafiya və statistika sahəsi üzrə, 168 cildi təbiət tarixi və riyaziyyat üzrə, 179 cildi dilçilik üzrə, 843 cild isə dövrü nəşrlər idi [3, buraxılış 1, şöbə 1, s.46-47]. Şagird kitabxanasında 316 adda 509 cilddə müxtəlif məktəb dərslikləri, xəritə, atlas, şəkil, müxtəlif predmet və əşyalara aid şəkillər var idi[3, buraxılış 1, şöbə 1, s. 47]. İrəvan Şəhər cəmiyyəti 1870-ci ildən progimnaziya üçün illik 700 manat ödəyirdi. Bu ödəniş 1873-cü ildən, progimnaziyanın ikinci hazırlıq sinfi təşkil olunandan 1879-cu ilin iyun ayınadək verildi [2, s.160].

"Qafqaz təqvimi"nin 1881-ci il məlumatına görə, İrəvan progimnaziyasının direktoru İ.İ.Vinoqradov, katibi K.F.Krivenko, müsəlman qanunları və tatar dili üzrə müəllim Mirzə Ələkbər Elxanov, rus dili müəllimi (vakant), fəxri müəllim Zurab Korqanov, latın və yunan dilləri üzrə N.A.Smirnov, riyaziyyat müəllimi Q.A.Nekoz, tarix və coğrafiya müəllimi A.Y.Ter-Ovakimov, fransız dili üzrə müəllim İsveç əsilli Lüdviq Dyuleks, alman dili üzrə müəllim Stanislav İ.Klyuçevski, rəsmxətt və

xəttatlıq üzrə müəllim P.K.Georgizen, hazırlıq üzrə müəllim Stepan Pavloviç Zelinski, progimnaziya həkimi və pansion doktoru S.V.Kruşevski idi [5, şöbə 3, s.85].

İrəvan gimnaziyası. Dövrün tələblərinə uyğun olaraq İrəvan progimnaziyasında əsaslı təkmilləşdirilmə həyata keçirildi. Belə ki, 31 Mart 1881-ci ildə İrəvan progimnaziyası səkkiz sinifli gimnaziyaya çevrildi və bundan sonra İrəvan kişi gimnaziyası kimi tanındı [12]. 1883-cü il məlumatlarına görə, İrəvan gimnaziyasında təhsil alan 237 şagirddən 37-si tatar (Azərbaycan türkü) idi. İrəvan kişi gimnaziyasında, İrəvan qəza məktəbi kimi fəaliyyət göstərməyə başladığı andan və 6 avqust 1918-ci il tarixində bağlanmasına qədər şəriət dərsləri və Azərbaycan dili tədris olunurdu. Belə ki, 1836-1856-cı illərdə Molla Tağı Mahmud oğlu, 1856-1885-ci illərdə Mirzə Ələkbər Elxanov, 1885-1895-ci illərdə Firudin bəy Köçərli, 1895-1905-ci illərdə İsmayıl bəy Səfibəyov, 1905-1906-cı illərdə Mirzə Məhəmməd Şeyxzadə, 1907-1918-ci illərdə. Şeyx Əbusəttar Kazımov şəriət dərsləri və tatar dilini tədris etmişdilər [12].

"Qafqaz təqvimi"nin 1883-cü il məlumatlarına görə, İrəvan Gimnaziyasının direktoru V.O.Brajnikov, hüquq müəllimləri: pravaslav təriqəti üzrə protoierey Qəmbərov, erməni-qriqoryan təriqəti üzrə Gevond Atanasyanç, müsəlman təriqəti və tatar dili üzrə müəllim Mirzə Elxanov, müəllimlər: rus dili üzrə N.S.Sazonov, qədim dillər üzrə P.İ.Tverdıy, fransız dili üzrə Avstriya əsilli Adolf Osipoviç Rayteman, alman dili üzrə S.İ.Klyuçevski (həmçinin gimnaziyanın katibi), rəsmxətt və xəttatlıq üzrə P.K.Georgizen, hazırlıq sinif müəllimi Stepan Pavloviç Zelinski, sinif müəllimlərinin köməkçisi Mirzə Elxanov, pansion müəllimləri (vakansiya), onun köməkçisi P.K.Georgizen, F.A.Alxov, V.İ.Qermut, həkim Q.S.Kuzneçov idi [6, s.87].

İrəvan Gimnaziyasının müəllim kadrlarla zənginləşməsində Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin məzunları da mühüm rol oynadılar. "Qafqaz təqvimi"nin 1886-cı il məlumatları göstərir ki, bu sahədə ən böyük fədakarlıqlardan biri, böyük Azərbaycan mütəfəkkiri Firudin bəy Köçərli oynamışdı [7, şöbə 2, s.77]. O, 1885-1896-cı illərdə İrəvan Gimnaziyasında tatar dili və hüsnxətt fənlərini tədris etmiş, pansion mürəbbisinin köməkçisi vəzifəsini daşımışdı. 1885-ci ildə Qori Müəllimlər Seminariyasını bitirən F.Köçərli gənc kadrların hazırlanmasında əlindən gələni əsirgəməmiş, həmçinin poeziyaya, ədəbiyyata hədsiz maraq göstərmişdi. O, Puşkinin "Topçu və balıq", M.Y.Lermontovun "Üç xurma ağacı", A.V.Koltsovun "A kişi, niyə yatıbsan?!" əsərlərindən şeirlər tərcümə etmiş, bu tərcümələri dərsiklərə salmışdır [2, s.162].

"Qafqaz təqvimi"nin 1910-cu il məlumatlarına görə İrəvan şəhərində N.Q.Şerbanin adına kişi progimnaziyası da açılmışdı. Progimnaziyanın inspektoru A.Q.Ksyupin, nəzarətçi İsfəndər bəy Sultanov, pravaslav məzhəbi üzrə müəllim V.Qromçev, müsəlman şəriəti üzrə müəllim Cəfərbəy Cəfərbəyli, həkimlər İ.A.Milovski və Ter-Markarov idi [9, 2-ci hissə, şöbə 2, s.766].

İrəvan quberniyasında kişi gimnaziyaları ilə yanaşı, qadın progimnaziya və gimnaziyaları da açılmışdı. 1909-cu il məlumatlarına görə, İrəvan quberniyasında 1 qadın progimnaziyası var idi [9, 1-ci hissə, şöbə 2, s.591]. 1908-1909-cu tədris ilində burada 164 nəfər təhsil alırdı. Bunlardan 8 nəfəri rus, 2 nəfəri gürcü, 152 nəfəri erməni, 2 nəfəri isə digər millətlərdən olanlar idi [9, 1-ci hissə, şöbə 2, s.593]. 1910-cu ilin məlumatlarına görə, İrəvan qadın progimnaziyasında 224 nəfər təhsil alırdı. Bunlardan 19 nəfəri rus, 5 nəfəri gürcü, 197 nəfəri erməni, 3 nəfəri isə tatar idi [10, şöbə 4, s.315].

İrəvan şəhərində qadın gimnaziyası da açılmışdı. 1903-cü il məlumatlarına görə, İrəvan şəhərində fəaliyyət göstərən qadın gimnaziyasında 333 nəfər təhsil alırdı. Bunlardan 102 nəfəri rus, 13 nəfəri gürcü, 202 nəfəri erməni, 4 nəfəri tatar, 2 nəfəri dağlı, 1 nəfər yəhudi, 9 nəfər isə digər millətlər idi [8, şöbə 3, s.79].

1908-1909-cu tədris ilində İrəvan qadın gimnaziyasında 445 nəfər təhsil alırdı. Bunlardan 137 nəfəri rus, 27 nəfəri gürcü, 259 nəfəri erməni, 5 nəfəri tatar, 2 nəfəri dağlı xalqları, 15 nəfəri digər millətlərdən olanlar idi [9, hissə 1, şöbə 4, s.593]. 1910-cu tədris ilində İrəvan qadın gimnaziyasında təhsil alanların sayı 450 nəfər idi. Bunlardan 151 nəfəri rus, 21 nəfəri gürcü, 248 nəfəri erməni, 14 nəfəri tatar, 3 nəfəri dağlı, 13 nəfəri digər millətlərdən idi [10, şöbə 4, s.315].

1917-ci ilin məlumatlarına görə, artıq İrəvan şəhərində iki qadın gimnaziyası var idi. Birinci İrəvan Qadın Gimnaziyasında 577 nəfər təhsil alırdı. Bunlardan 436 nəfər rus, 6 nəfər gürcü, 14 nəfər erməni, 121 nəfəri isə digər millətlər idi [11, s.286].

Aleksandropol progimnaziyası. Qərbi Azərbaycanda progimnaziyalardan biri də İrəvan quberniyasının Aleksandropol qəzasında açılmışdı. Bu, Aleksandropol Olqa Qadın Progimnaziyası idi [2, s.166].

"Qafqaz təqvimi"nin 1882-ci il məlumatlarından aydın olur ki, Aleksandropol Olqa Qadın Progimnaziyasının "Qəyyumlar Şurası" aşağıdakı tərkibdə idi: sədr Nikita Kostanov, üzvləri: P.A.Nikolayev, progimnaziyanın xanım sədri Mariya Vodopyanova, Yekaterina Ağacanova, Marqarita Aslanova, birinci gildiya taciri Saqratov, pedaqoji şuranın tərkibi: sədr P.A.Nikolayev, üzvləri Mariya Vodopyanova, pravaslav məzhəbi üzrə vakansiya, erməni-qriqoryan məzhəbi üzrə Mesrop Geonciyanç, müəllimlər: rus dili, rəsmxətt üzrə Yuliya Qulbinskaya, Vera Sofonova, hazırlıq sinif müəllimi Olqa Andriasova, oxu üzrə Pyotr Nikolayev idi [6, şöbə 2, s.100].

1902-ci il məlumatlarına görə, Aleksandropol Qadın Progimnaziyasında 239 nəfər təhsil alırdı. Bunlardan 42 nəfər rus, 7 nəfər gürcü, 172 nəfər erməni, 3 nəfər yəhudi, 15 nəfər isə digər millətlər idi [8, s.79].

1909-cu il məlumatlarına görə, Aleksandropol Qadın Progimnaziyası Qadın Gimnaziyasına çevrilmişdi. 1908-1909-cu tədris ilində burada 372 nəfər təhsil alırdı. Bunlardan 121 nəfəri rus, 8 nəfəri gürcü, 233 nəfəri erməni, 10 nəfəri isə digər millətlərdən olanlar idi [9, hissə 1, s.592]. 1910-cu il məlumatlarına görə, Aleksandropol qadın gimnaziyasında 424 nəfər təhsil alırdı. Bunlardan 152 nəfəri rus, 20 nəfəri gürcü, 240 nəfəri erməni, 2 nəfəri tatar, 10 nəfəri isə digər millətlərdən olanlar idi [10, s.314].

İrəvan quberniyasının 1914-cü ilə aid "yaddaş kitabçası"nın məlumatlarına görə, Aleksandropol Olqa Qadın Gimnaziyasının Pedaqoji Şurasının, həmçinin gimnaziyanın sədri Aleksandr Arxipoviç Suxov, pravaslav məzhəbi üzrə müəllim M.Q.Kriakov, erməni-qriqoryan məzhəbi üzrə müəllim K.O.Arakelyan, rus dili və tarixi müəllimi Anna Kulikova, rus dili müəllimi A.M.Matinyanç idi [15, şöbə 1, s.57].

1916-cı il məlumatlarına görə, Aleksandropol Qadın Gimnaziyasında 531 nəfər təhsil alırdı. Dini məzhəblərə görə, bunlardan 189 nəfəri pravaslav, 14 nəfəri Roma-katoliklər, 325 nəfəri erməni-qriqoryan, 2 nəfəri yəhudi, 1 nəfəri müsəlman idi [11, s.286].

Nəticə. Beləliklə, yuxarıdakı araşdırılmış mənbələrin məlumatları aydın şəkildə göstərir ki, XIX əsrin 30-cu illərindən etibarən Şimali Azərbaycanın məktəb və maarif sisteminin inkişafında müəyyən irəliləyişlər baş verdi. Keçmiş dini təhsil ocaqları tədricən dünyəvi məktəblərlə əvəz olundu. Bölgədə əvvəlcə qəza məktəbləri, XIX əsrin ortalarından etibarən isə İrəvan quberniyasının qəza şəhərlərində şəhər məktəbləri açıldı. XIX əsrin 60-cı illərindən isə Qərbi Azərbaycan ərazilərində progimnaziya və gimnaziyalar təşkil olundu. Bu məktəblərin ömrü XIX əsrin sonları-XX əsrin əvvəllərinə kimi davam etdi. Tədricən bu tipli məktəblər də dövrün tələblərinə uyğun olaraq yeniləşir, təkmilləşirdi. Qərbi Azərbaycanda progimnaziya və gimnaziyalar əsasən İrəvan və Aleksandropol şəhərlərində açılmışdı. Bütün bunlar o zamankı Şimali Azərbaycanın, xüsusilə onun quberniya və qəza şəhərlərinin maarif sistemində irəliyə doğru mühüm addımlar idi. Bununla belə, Şimali Azərbaycanın digər bölgələrindən fərqli olaraq keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazilərinə Türkmənçay müqaviləsindən sonra ermənilərin kütləvi şəkildə köçürülməsi bölgənin etno-demoqrafik vəziyyətinə ciddi şəkildə təsir etmişdi. Qeyd olunan bu məqamlar Qərbi Azərbaycanda açılmış dünyəvi məktəblərdə təhsil alan millətlərin etnik tərkibində də aydın şəkildə nəzərə çarpırdı.

ƏDƏBİYYAT

1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: 2 cilddə: II cild, Bakı: Lider, 2005.
2. Əmrahov Z. İrəvan quberniyasının tarixi. 1850-1917-ci illər. Bakı: Nurlar, 2022.
3. Зелинский С. Город Эривань. Сборник материалов для описания местностей и племен Кавказа. Выпуск 1-й. Тифлис: Типография Главного Управления Наместника Кавказа. 1881.
4. Кавказский Календарь на 1877 год. Тифлис, 1876.
5. Кавказский Календарь на 1881 год. Тифлис, 1880.
6. Кавказский Календарь на 1883 год. Тифлис, 1882.
7. Кавказский Календарь на 1887 год. Тифлис, 1886.
8. Кавказский Календарь на 1904 год, Тифлис, 1903.

9. Кавказский Календарь на 1910 год. Тифлис, 1909.
10. Кавказский Календарь на 1912 год. Тифлис, 1911.
11. Кавказский Календарь на 1917 год. Тифлис, 1916.
12. Мустафа Н. Наука и образование в Город Иреван // https://iravan.info/ru/elm_ve_tehsil.html
13. Обзор Эриванской губернии за 1891 год. Эриван: Типография Р.К.Эделсона, 1892.
14. Памятная книжка Эриванскя Губерния на 1902 г. Под. Ред. А.И.Марченко. Эривань: Типография Р.К.Эделсон, 1902.
15. Памятная книжка Эриванскя Губерния на 1914 г. Под. Ред. К.А.Волчанина. Эривань: Типография Губернского Правления, 1914.

САМИР ИСМАИЛОВ
Преподаватель кафедры источниковедения, историографии и методологии Бакинского государственного университета, кандидат исторических наук, доцент

ПРОГИМНАЗИИ И ГИМНАЗИИ ЗАПАДНОГО АЗЕРБАЙДЖАНА (ВТОРАЯ ПОЛОВИНА XIX ВЕКА - НАЧАЛО XX ВЕКА)

В статье рассматриваются прогимназии и гимназии, которые занимали особое место среди светских школ, созданных на землях Западного Азербайджана в период царской России. Проведенное исследование показывает, что меры, принятые царской Россией с 30-х годов XIX века по развитию школьной и образовательной системы, не остались без влияния на окраинах империи. В результате этих реформ бывшие религиозные учебные заведения постепенно были заменены светскими школами. Сначала в регионе были организованы уездные школы, а с середины XIX века в уездных городах Иреванской губернии были организованы городские школы, прогимназии и гимназии.

Ключевые слова: Западный Азербайджан, прогимназия, гимназия, Иреван, Нахичевань, Александрополь, реформа.

SAMIR ISMAYILOV
Teacher of the Department of Source Studies, Historiography and Methodology Baku State University, PhD in History, Associate Professor

PROGYMNASIUM AND GYMNASIUMS IN WESTERN AZERBAIJAN (SECOND HALF OF THE 19TH CENTURY – BEGINNING OF THE 20TH CENTURY)

The article discusses the progymnasiums and gymnasiums, which occupied a special place among the secular schools established in the lands of Western Azerbaijan during the tsarist Russia. The conducted research shows that the measures taken by tsarist Russia from the 30s of the 19th century towards the development of the school and education system did not remain without impact on the outskirts of the empire. As a result of these reforms, the former religious educational institutions were gradually replaced by secular schools. First, district schools were organized in the region, and from the middle of the 19th century, city schools, progymnasiums and gymnasiums were organized in the district cities of the Iravan governorate.

Keywords: Western Azerbaijan, progymnasium, gymnasium, Irevan, Nakhchivan, Aleksandropol, reform.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 11 aprel 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Sevinc Qasımova, t.e.d. Anar İsgəndərov.